# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 295** **Bakı şəhəri, 13 iyul 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 100 nömrəli qərarı ilə təsdiq edilmiş "Qaçan sətirlə yayımlanan reklamın təqdimolunma Qaydası"nda dəyişiklik edilməsi barədə**

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 867-VQD nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 dekabr tarixli 1727 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 100 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 773) ilə təsdiq edilmiş "Qaçan sətirlə yayımlanan reklamın təqdimolunma Qaydası"nın 3.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.1. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.8-ci maddəsində nəzərdə tutulmuş lövhələr (yazılar) reklam daşıyıcıları və yerləşdirilməsinə icazə alınması tələb olunan reklam hesab edilmir.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***